# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 15 (1676) 18 sentyabr 2018 - ci il Qiyməti 50 qəpik


# Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirilib

## Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan paradda iştirak ediblər

Sentyabrın 15-də Azərbaycan paytaxtının Azadlıq meydanında Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva paradda iştirak ediblər.

Bu gün Azərbaycan Respublikasının paytaxtı Bakı öz tarixinin ən əlamətdar günlərindən birini yaşayır. Düz 100 il əvvəl - 1918-ci il sentyabrın 15-də Bakı tarixində ilk dəfə Azərbaycanın paytaxtı statusunu alaraq Qafqaz İslam Ordusu və Azərbaycan milli ordu birləşmələrinin zəfərini bayram edirdi. Həmin gün indi yenidən təkrarlanır. Qardaşlığın, sədaqətin rəmzinə çevrilən bu zəfər bayramı ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının fəlsəfəsini yetərincə əks etdirir və Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının sarsılmaz, həm də əbədi olduğunu göstərir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan və Türkiyə prezidentlərinə raport verdi.

Dövlət başçıları əsgərləri salamladılar.

Hərbi orkestr Türkiyənin və Azərbaycanın dövlət himnlərini ifa etdi.

Sonra sözləri görkəmli Azərbaycan şairi Əhməd Cavada, musiqisi dahi bəstəkar Üzeyir Hacıbəyliyə məxsus "Çırpınırdı Qara dəniz" mahnısı səsləndirildi. Daha sonra ölməz sənətkar Müslüm Maqomayevin ifasında məşhur "Azərbaycan" mahnısının sədaları "Azadlıq" meydanına yayıldı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan paradda çıxış etdilər.

x x x

Dövlət başçılarının çıxışlarından sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi başlandı. Qarnizonun birlik, birləşmə, hərbi hissə, dövlət xidmətləri və xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən parad heyətləri tribunaya doğru irəlilədi. Qarşıda Azərbaycan Respublikasının dövlət bayrağı, onun ardınca isə Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları gətirildi...



...Parad başa çatdıqdan sonra dövlət başçıları Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 100 illiyi münasibətilə Türkiyədə hazırlanan xatirə markasını və ilk zərfi imzaladılar...

...Yüzlərlə hərbi texnikanın, uçuş vasitələrinin, zirehli texnikaların, raket və artilleriya silahlarının, hava hücumundan müdafiə sistemlərinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının, digər silah və texnikanın nümayiş olunduğu bu parad bir daha göstərdi ki, son illərdə ordumuz əhəmiyyətli dərəcədə güclənib. Güclü iqtisadiyyata söykənən güclü ordu formulu Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayələrindən birinə çevrilib. Ölkəmizin iqtisadi inkişaf tempi Silahlı Qüvvələrin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biri olub.

## BU SAYIMIZDA




ATU- da "BİLİK GÜNÜ"NƏ HƏSR EDİLMİŞ TOPLANTI KEÇİRİLDİ 2

Görkəmli alim, akademik Böyükkişi Ağayevin 90 illiyi qeyd olunub 4





Fakültə dekanlıqlarının nümayəndələri I kurs tələbələrilə görüşüblər 5





2 Amerikalı professor ATU-da tədqiqat aparacaq





KURSANTLARIMIZ HƏRBİ AND İÇDİLƏR 4

# ATU- da "BİLİK GÜNÜ"NƏ HƏSR EDİLMİŞ TOPLANTI KEÇİRİLDİ

**Respublikamızın bütün ümumtəhsil, orta ixtisas və ali məktəblərində artıq bir ənənəyə çevrilən yeni dərs ilinin ilk günü– "Bilik günü" ümumxalq bayramı kimi qeyd olunur. Bu münasibətlə ölkəmizdə ən qabaqcıl ali təhsil müəssisələrindən biri sayılan Azərbaycan Tibb Universitetində də geniş toplantı keçirildi.**



Dövlət himnimizin səslənməsi ilə başlanan toplantını giriş nitqi ilə açan ATU- nun rektoru, professor Gəray Gəraybəyli doğma kollektivi və bu il tələbə adını qazananları yeni tədris ilinin başlanması münasibətilə təbrik etdi: "Bildiyiniz kimi bu il universitetimizə qəbul daha çətin idi. Qəbul planı ötən illərə nisbətən 250 nəfərə qədər azaldılmışdır. Bu fakt da tələbələr arasında olan rəqabəti daha da artırmışdır. Lakin buna baxmayaraq siz gecə-gündüz oxumusunuz, yuxusuz gecələr keçirmisiniz, universitetə hazırlaşmısınız. Bu çətin və uzun yoldan sonra nəhayət, imtahanları uğurla verib ölkəmizin ən nüfuzlu ali məktəbləri sırasında öz yeri olan Azərbaycan Tibb Universitetinin tələbəsi adına layiq görülmüsünüz. Biz ən azı altı il sizinlə bir yerdə olacaq və bu ali məktəbin görkəmli alimləri, tanınmış müəllimləri sizə bu sənətin çətin, lakin şərəfli yollarını öyrədəcəklər. Və mən inanıram ki, indi burada əyləşən gənclərimiz də gələcəkdə o tanınmış mütəxəssislərin sırasında olacaqlar. Təbii ki, bu illər ərzində hər birinizin həyatı universitetlə bağlı olacaq. Bu illər hər birinizin yaddaşında dərin iz qoyacaq. Bu gün sizin üçün həm fərəhli, həm də sevincli bir gündür. Bəziləriniz gələcəkdə təhsilinizi davam etdirəcək, bəziləriniz pedaqoji fəaliyyətlə məşğul olacaq, bəziləriniz isə arzularınızın dalınca xarici ölkələrə gedəcəksiniz. Bir daha sizə tələbəlik həyatınızda uğurlar diləyir, ailənizə isə mehribançılıq və cansağlığı arzulayıram!"

Histologiya, sitologiya və embriologiya kafedrasının müdiri, professor Eldar Qasımov da "Bilik günü" münasibəti ilə müəllim və tələbələri təbrik etdi: "Həyatınızın ən uğurlu seçimini etmisiniz. Əldə etdiyiniz bu nailiyyətlə həm bizi, həm də ailənizi sevindirmisiniz. İnsan həyatının keçid nöqtəsi - sənət seçimidir. Siz artıq bu addımı atmısınız. Həkimlik–çox ağır və məsuliyyətli peşədir. Hazırda bizim universitetdə tədrisin yüksək səviyyədə aparılması üçün bütün lazım olan yeni müasir avadanlıqlar və savadlı müəllimlər var. Pedaqoqla yanaşı, siz özünüz də oxumağı həqiqətən istəməlisiniz. Çünki sizlər həkim olub, kimlərinsə həyatını xilas edəcəksiniz".

Eldar Qasımov çıxışında tələbə sıralarına yenicə qəbul olunanlara bu peşənin məsuliyyətini dərk edərək əzmlə çalışmağı məsləhət gördü. O, gənclərə tövsiyə etdi ki, əsil vətəndaş olmaq üçün təkcə savad azdır, həm də milli-mədəni sərvətlərimizi qoruyub saxlamalı və gələcək nəsillərə ötürməliyik.

II uşaq xəstəlikləri kafedrasının müdiri, ə.e.x., professor Amaliya Əyyubova isə çıxışında dövlətimizin iqtisadi inkişafından, tibb sahəsində kadr potensialının hazırlanması istiqamətində qazanılan nailiyyətlərdən söhbət açdı. Tibb sahəsinin, səhiyyə sisteminin ölkədə irəlidə gedən bir sahəyə çevrildiyini vurğuladı. O, Tibb Universitetinin ölkəmizdə və xaricdə böyük nüfuza malik olduğunu, bu təhsil müəssisəsinin xalqımıza yalnız bacaraqlı tibbi kadrlar deyil, həm də görkəmli şəxsiyyətlər bəxş etdiyini dilə gətirdi. A.Əyyubova qeyd etdi ki, məzunlarımızın sorağı dünyanın inkişaf etmiş bir çox ölkələrindən gəlir: "Sevindirici haldır ki, tibb sahəsi bütün dünyada olduğu kimi, Azərbaycanda da daim inkişafdadır. Bu şərəfli yolda hər birinizə uğurlar diləyirəm. Sizə tövsiyyə edirəm ki, yaxşı oxumaqla yanaşı, universitetin sosial həyatında da fəal iştirak edəsiniz. Bunun üçün universitetimizdə Tələbə Elmi Cəmiyyəti (TEC) fəaliyyət göstərir".

700 balla ATU-nun tələbəsi adını qazanan Prezident təqaüdçüsü Nərmin Əhədova ona dəstək olan valideyinlərinə və orta məktəbdə ona dərs deyən müəllimlərinə, o cümlədən gələcək müəllimlərinə təşəkkürünü çatdırdı. O, çıxışında söz verdi ki, daim bu ali təhsil ocağının adını uca tutacaq və sevimli müəllimlərinin etimadını hər zaman doğruldacaq.

Tədbiri yekunlaşdıran professor Gəray Gəraybəyli qeyd etdi ki, ölkəmizdə ildən-ilə müəllimlərin və həkimlərin maddi rifah halının yaxşılaşdırılması istiqamətində böyük işlər görülür, Azərbaycan hökumətinin qarşısında duran başlıca məqsəd təhsil və səhiyyə sahələrində yüksək keyfiyyətə nail olmaqdır. Rektor Azərbaycan təhsilinin və səhiyyəsinin infrastrukturunda köklü islahatlar aparıldığını önə çəkərək bildirdi ki, bütün bu irəliləyişlərin kökündə Azərbaycanın daim artan iqtisadi gücü dayanır. Bütün sahələrdə gedən dinamik inkişaf isə ulu öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan və



cənab Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi iqtisadi siyasətin təntənəsinin göstəricisidir.

Rektor çıxışında diqqətə çatdırdı ki, son illər Tibb Universitetində tələbələrə geniş imkanlar yaradılıb. Belə ki, onlar fakültə və rektoryanı şuraların və eləcə də Böyük Elmi Şuranın üzvü seçiliblər.

Yeni dərs ilinin başlaması münasibətilə universitet əməkdaşlarını və tələbləri bir daha təbrik edən G.Gəraybəyli kollektivin bundan sonra da yeni uğurlara imza atacağına inamını ifadə etdi.

Sonda ATU–nun rektoru G.Gəraybəyli yeni tədris ilində təhsil alan 24 nəfər prezident təqaüdçüsünə hədiyyələr təqdim etdi, 700 bal toplayan 5 nəfər tələbəni isə "notebook"la mükafatlandırdı.

Azərbaycan Tibb Universitetinin himni ilə başa çatan tədbirdə Tibb Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və tələbələr iştirak edirdilər.

Qeyd edək ki, 2018-2019-cu tədris ilində 716 nəfər ATU-nun tələbə adını qazanıb. Bunlardan 498 nəfəri müalicə-profilaktika , 49 nəfəri ictimai səhiyyə, 30 nəfəri stomatologiya, 50 nəfəri əczaçılıq fakültələrinin tələbələridir. 44 nəfər hərbi həkim, 30 nəfər isə hərbi feldşer ixtisasını seçib.

Universitetdə 15 nəfər magistr təhsili alır. 5 nəfər 700, 569 nəfər isə 600-dən çox bal toplayıb. 2018-2019-cu tədris ilində hazırlıq şöbəsini bitirən 576 nəfər xarici ölkə vətəndaşı universitetin I kursuna qəbul olunub.

Yeni tədris ilində 49 nəfər məcburi köçkün, 1 nəfər valideyn himayəsindən məhrum olan və 13 nəfər valideyni Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan gənclər təhsil haqqından azad olunublar.

**MƏNSUR**

# Amerikalı professor ATU-da tədqiqat aparacaq

**Çikaqo Dövlət Universitetinin professoru, tanınmış mikrobioloq Nadim Fazal Azərbaycan Tibb Universitetinin mikrobiologiya kafedrasında işə başlayır. Mikrobiologiya ilə yanaşı, immunologiya, infeksion xəstəliklər və fiziologiya sahəsində mütəxəssis olan Nadim Fazal 4 ay müddətində kafedrada çalışacaq, elmi-tədqiqatlar aparacaq, həmçinin mühazirələr və praktik dərslər keçirəcək.**





Qonaqla görüşdə ATU-nun mikrobiologiya kafedrasının professoru Akif Qurbanov dünya miqyaslı alimin ATU-da dərs keçəcəyindən çox məmnun olduğunu və onunla əməkdaşlığın uzun müddət davam edəcəyinə ümid etdiyini bildirdi.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov professor Nadim Fazalın ABŞ Dövlət Departamentinin Fulbright prqoramı çərçivəsində universitetdə qonaq olduğunu qeyd etdi: "İndiyədək Fulbright prqoramı ilə ATU-ya müxtəlif sahə üzrə alim və mütəxəssislər təşrif buyurub. Bundan öncə ictimai səhiyyə üzrə mütəxəssis bütöv bir semestr ATU-da olmuşdu. Fulbright proqramı üzrə növbəti qonağımız olan professor Nadim Fazal mikrobiologiya və immunologiya üzrə ixtisaslaşıb. İnanırıq ki, onun keçirəcəyi dərslər ATU tələbələrinin faydalı biliklər əldə etməsinə yardımçı olacaq".

Çikaqo Dövlət Universitetinin professoru Nadim Fazal dəvət üçün təşəkkürünü bildirərək təmsil etdiyi ali məktəb haqqında məlumat verdi. Onun sözlərinə görə, bu universitet ABŞ-da Amerika fənlərarası humanitar elmlər kollecini və Alman tədqiqat universitetlərini birləşdirən ilk ali təhsil ocağıdır. ABŞ-da ən böyük universitet nəşriyyatı da məhz bu təhsil ocağında yerləşir. Çikaqo Universitetinin kampusunun ərazisində ümumilikdə 243 bina yerləşir.

Amerikalı professor N.Fazal ATU-da olacağı müddətdə həm öyrədəcəyini, həm də özünün öyrənəcəyini bildirdi. O, ABŞ-ın İllinoys ştatında yerləşən elmi-tədqiqat axtarış mərkəzi ilə əməkdaşlıq çərçivəsində həm də araşdırmalar aparacaq, ATU-nun mikrobiologiya və immunologiya kafedralarındakı dərs prosesini izləyəcək.

# Azərbaycan Tibb Universitetində köklü islahatlar aparılıb

## Gəray Gəraybəyli: Tələbələrimiz də müəllimlərin qiymətləndirilməsində iştirak edəcəklər

◆ **Universitetimizin rektoru, professor Gəray Gəraybəyli səhiyyə sahəsində peşəkar kadrlar hazırlayan Azərbaycan Tibb Universitetində son illər ərzində aparılan ciddi islahatlar barədə "Trend"ə geniş müsahibə verib. Müsahibənin aktuallığını və tibbi kontingentimiz üçün maraqlı məqamlara toxunulduğunu nəzərə alaraq "Təbib" qəzetinin oxucularına da təqdim edirik.**



**- Gəray müəllim, son illər ATU-da bir sıra dəyişikliklərin həyata keçirildiyinin şahidiyik. Bu qəbildən əsasən hansı islahatları xüsusi qeyd etmək olar?**

-Əvvəlcə onu qeyd edim ki, bizim əsas məqsədimiz Azərbaycan Tibb Universitetində təhsil sistemini təkmilləşdirmək, proqramı beynəlxalq standartlara uyğunlaşdırmaq, tələbələrimizin xarici ölkələrdə daha çox təcrübə keçməsinə imkan yaratmaq, onların daha çox faydalı bilik, o cümlədən praktiki bacarıq əldə etməsinə yardım etməkdən ibarətdir. Bu və nəzərdə tutduğumuz digər islahatları reallaşdırmaq üçün əvvəlcə bir sıra sənədlər qəbul etdik. Məsələn, ATU-nun Nizamnaməsi qəbul edildi və Səhiyyə Nazirliyi tərəfindən təsdiqləndi. Azərbaycan Tibb Universitetinin Klinikaları haqqında əsasnamələr qəbul olundu.

Digər sənədlər arasında Azərbaycan Tibb Universitetində təhsilin keyfiyyətinin təminatı sistemi haqqında Bəyannamə, ATU-nun müxtəlif kafedralarında fəaliyyət göstərən laboratoriyaların əsasnamələrinin qəbulunu göstərmək olar. ATU-da professor-müəllim heyətinin fəaliyyətinin obyektiv qiymətləndirilməsi üçün də komissiya və bal-reytinq şkalası yaradılıb.

Əsasnamə layihəsinə görə, pilot kafedralar seçiləcək və burada müəyyən meyarlar əsasında qiymətləndirmə aparılacaq.

Bu tədris ilindən etibarən bütün müsabiqədə iştirak edən müəllimlər bal-reytinq şkalasından keçib sonra müsabiqəyə buraxılacaqlar.

Xüsusilə qeyd etmək istərdim ki, ilk dəfə olaraq biz işimizin daha düzgün qiymətləndirilməsi, fəaliyyətimizdə şəffaflığın artırılması üçün Azərbaycan Tibb Universitetinin rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının yaradılmasına qərar verdik. Ötən ilin mayında bu şuranın əsasnaməsi qəbul edildi. Hazırda həmin təşkilatın üzvləri arasında millət vəkilləri, ölkənin tanınmış KİV rəhbərləri, QHT sədrləri var. Onlar mütəmadi olaraq ATU-da olur, imtahanların gedişini, qəbul prosesini izləyirlər, iradlarını, məsləhətlərini bildirirlər. Artıq onların təklifləri qarşısında islahatlar da aparılıb.

Bundan əlavə, Azərbaycan Tibb Universitetinin yeni atributları-gerbi və loqosu, himni qəbul edildi. Bu rəmzlərin seçilməsi üçün tələbələr arasında elektron sorğu da keçirildi. Bunlar tələbələrimizin daha da həmrəy olmasına və ATU-nun daha yaxşı təqdimatına kömək oldu.

**- Yeni qəbul edilən sənədlərə əsasən hansı sahədə dəyişiklik oldu? Yeniliklər müəllim və tələbələrin işinə, təhsilinə necə təsir göstərdi?**

-Ciddi islahatlardan biri buraxılış imtahanları ilə bağlı idi. Keçən ildən etibarən ATU-da dövlət imtahanları yeni formada–Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (OSKİ) bacarıq imtahanı kimi aparılır. Biz bunu ən əsas dəyişiklik adlandıra bilərik. Çünki indiyədək tələbələrin əsasən nəzəri bilikləri qiymətləndirilirdi. İndi isə onların gələcəkdə bacarıqlı həkim kimi yetişməsinin göstərici olan praktiki bacarıqlarına da qiymət verilir. Tələbələrə bir neçə dəqiqə ərzində konkret tapşırıqları yerinə yetirmək təklif olunur. Məsələn, xəstəyə süni nəfəs vermək, ürəyi masaj etmək, venaya iynə vurmaq və s.

Digər tərəfdən, imtahan sessiyalarında I kurs tələbələrinin qış imtahan sessiyasında yeni imtahan sistemi tətbiq etdik.

İmtahanlarla bağlı mühüm dəyişikliklərdən biri də Elektron Universitetin yaradılması ilə bağlıdır. Belə ki, əvvəllər imtahanların nəticələri adi qaydada təqdim olunurdu. İndi isə ATU-da yeni yaradılmış İT şöbəsinin vasitəsilə imtahan nəticələri statistik formada hazırlanır və dekan müavinlərinə təqdim olunur. Burada qiymətlərin statistikası, ümumi imtahanın statistikası açıqlanır.

Elektron Universitetin tətbiqi bu prosesdə insan faktorunun iştirakını demək olar sıfıra endirib. Əvvəllər iki günə görülən işlər indi 10 dəqiqəyə icra olunur. Hazırda ATU-da yaradılan sistem beynəlxalq standartlara uyğundur. İmtahan sistemindəki dəyişikliklərlə bağlı Türkiyənin Hacettepe Universitetinin mütəxəssisləri yardım göstəriblər.

**- ATU həm də xarici tələbələrin ən çox üz tutduğu yerli ali məktəblərdən biridir. Əcnəbi tələbələrin ATU-ya qəbulu, təhsili ilə bağlı hansısa yenilik nəzərdə tutulubmu?**

- Yeni tədris ilində Azərbaycan Tibb Universitetinin hazırlıq kursuna qeydiyyat yeni formada–elektron qaydada aparıldı. ATU-nun Böyük Elmi Şurasının qərarına əsasən, 2018/2019-cu tədris ilindən etibarən, universitetə əcnəbi vətəndaşların qəbulu yalnız bu sistemlə keçiriləcək.

Hazırlıq kurslarına elektron qəbulu təmin etmək məqsədilə universitetin saytında xüsusi səhifə yaradılıb. Əcnəbi vətəndaşların müraciətləri məhz bu səhifə üzərindən qəbul edilir. Bunun üçün lazımi sənədlərin elektron variantı portala yüklənilir. Sənədlər yoxlanıldıqdan sonra qəbul edilir. Növbəti mərhələ namizədlərlə "Skype" bağlantısı vasitəsilə müsahibə aparılır. Müsahibə səkkiz nəfərdən ibarət komissiya tərəfindən həyata keçirilir. Bu zaman namizədlərə həm ümumi suallar, həm də fənn sualları verilir. Hər bir namizədə cavablarına uyğun olaraq ballar yazılır. Əgər namizədin topladığı bal keçid balından yuxarıdırsa, onda onların ATU-nun hazırlıq kursuna qəbul üçün müraciətləri təmin edilir. "Skype"la müsahibə 8-10 dəqiqə davam edir.

**-Yeri gəlmişkən, gələn həftədən yeni tədris ili başlayır. ATU tələbələri bu il hansı yeniliklərlə üzləşəcəklər?**

- Maraqlı yeniliklərdən biri elektron jurnalın tətbiqi ilə bağlıdır. Bu ildən ATU-ya qəbul olan tələbələr üçün yalnız elektron jurnal aparılacaq. Bu, proseslərin dəqiq əks olunmasına kömək edəcək. Bu jurnalda tələbənin nömrəsi kodlaşdırılıb və onun haqqında hər cür məlumat daxil edilib. Tələbənin nömrəsinə baxmaqla, onun hansı ildə qəbul olduğu, tədris hansı dildə keçdiyi, hansı sırada qeydiyyatda olduğunu bilmək mümkündür. Bu sistem tam şəffaflığa təminat verir, çünki hansısa məlumatı sonradan dəyişmək mümkün deyil. Tələbə kodunu daxil edib sistemə girəndə öz qiymələrini, onun üçün dekanlıq və ya universitet tərəfindən yerləşdirilən elanları da görəcək.

Biz çalışırıq ki, tələbələr rəhbərliyə yaxın olsun, onları narahat edən məsələlərdən daim xəbərdar olaq, yaranmış problemlərin həllinə nail olaq. Odur ki, tələbələrin idarəetməyə cəlb olunması sahəsində də mühüm dəyişikliklər etmişik. Hər fakültədə tələbələrin dekanları seçilib. Onlar fakültə və universitetin Elmi Şuralarına, rektoryanı şuraya tələbələrin arzu və istəklərini, şikayətlərini çatdırırlar.

Tələbələrimiz elektron jurnal vasitəsilə də müəllimlərin fəaliyyətini, davranışını qiymətləndirə biləcəklər. Jurnalda bu məqsədlə xüsusi pəncərə var. Bura daxil olarkən tələbələr imtahan prosesinin gedişi, həmçinin müəllimlər barədə sualları cavablandıra bilərlər.

Həmçinin tələbələr üçün cədvəlləri, dərsləri beynəlxalq səviyyəyə çatdırmaq üçün bu ildən kurasiyalar ləğv olundu. Yay istehsalat təcrübəsinin yay aylarında keçirilməsi də ləğv olunaraq, semestr dərsləri ərzində aparılacaq. Bu, Türkiyədə və dünyada semestr daxilində olan praktikalara şamil edilir.

Biz bu il imkansız tələbələrlə bağlı ATU olaraq bir yeniliyə də imza atdıq. Rəhbərlik tərəfindən universitetimizdə valideyn himayəsindən məhrum olan tələbələr üçün Təqaüd Fondu yaradıldı. Fond vasitəsilə bu cür tələbələrin təhsil haqqı ödənilir. Bu qərar onlarla tələbəmizi əhatə edir. Müəllimlərin rifah halının yüksəldilməsi naminə nəzəri kafedralarda çalışan müəllimlərin əlavə əməkhaqları artırılıb. Həmçinin səhiyyə nazirinin qarşısında vəsatət qaldırılıb ki, bizim tələbələrimizə orta tibb işçisi kimi işləməyə icazə verilsin. Nazir buna müsbət rəy bildirərək, əmr verib. Artıq Tibb Universitetinin 6 illik bazasını bitirən tələbə orta tibb işçisi kimi işləyə bilər.

Ümid edirik ki, sadaladığımız və adını çəkmədiyim digər islahatların köməyi ilə Azərbaycan Tibb Universiteti kimi qocaman ali təhsil ocağında təhsilin keyfiyyətinin daha da yüksəlməsinə nail olacağıq.

# Avropa Nevrologiya Akademiyası Azərbaycanı sentyabr ayının ölkəsi seçib

**2011-ci ildə təsis edilmiş Nevroloqların Milli Assosiasiyası ölkəmizdə və xaricdə bir sıra konqres və seminarlar təşkil edib, beynəlxalq cəmiyyətlərin üzvlüyünə qəbul olunub, irimiqyaslı layihələrə qoşulub.**

Səhiyyə nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Nevroloqların Milli Assosiasiyası 2011-ci ildən Avropa Nevrologiya Akademiyasının üzvüdür. Hər il bu qurum tərəfindən təşkil edilən konfranslara azərbaycanlı nevroloqların elmi işləri təqdim olunur. 2012-ci ildə Assosiasiya Avropa Nevrologiya Akademiyasının Regional Təlim kursunun Azərbaycanda keçirilməsi üçün müraciət edib və 2014-cü ilin iyununda Bakıda üçgünlük təlim kursu təşkil olunub.

Avropa Nevrologiya Akademiyası bir neçə müddətdir ki, internet səhifəsində təqvim ilinin hər ayını cəmiyyətlə aktiv əlaqədə olan ölkələrdən birinə həsr edərək "Ayın ölkəsi" rubrikası yaradıb.



Rubrika son aylarda Almaniya, Polşa, Portuqaliya, Slovakiya, Belorusiya və s. kimi ölkələrin nevrologiyasına həsr edilib.

Sentyabr ayı isə Azərbaycan üçün ayrılıb və məqalədə Azərbaycan mədəniyyəti, o cümlədən qısa olaraq ölkəmizin görməli yerləri, mətbəxi və incəsənəti barədə məlumat verilib. Bundan başqa məqalədə Azərbaycan nevrologiyasının tarixi və hazırkı vəziyyəti, tibb, rezidentura təhsilləri barədə də məlumatlar yer alıb.

Məqaləni Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun nevrologiya və klinik neyrofiziologiya kafedrasının müdiri, Azərbaycan Nevroloqlarının Milli Assosiasiyasının prezidenti Rəna Şirəliyeva və kafedranın assistenti, tibb üzrə fəlsəfə doktoru Rahim Əliyev hazırlayıblar.

# Görkəmli alim, akademik Böyükkişi Ağayevin 90 illiyi qeyd olunub

**Sentyabrın 10-da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında görkəmli alim, tanınmış cərrah və bacarıqlı pedaqoq, akademik Böyükkişi Ağayevin anadan olmasının 90 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**

Konfransdan öncə tədbir iştirakçıları akademik B.Ağayevin məzarını ziyarət ediblər.

Tədbirin açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli akademik B.Ağayevin yubileyindən cəmi bir neçə ay öncə dünyasını dəyişməsindən kədərləndiyini dilə gətirdi: "Bu günü akademik Böyükkişi Ağayevin özünün iştirakilə keçirməyi planlaşdırırdıq. Təəssüf ki, tale belə imiş. Bu gün Böyükkişi Ağayev cismən bizimlə olmasa da, onun yaratdığı böyük məktəb, elmi-tədqiqat işləri, tələbələri, tibb elmində qoyduğu iz, onun təşəbbüsləri - bütün bunlar Böyükkişi Ağayevin bizimlə olmasından xəbər verir".

Akademikin keçdiyi şərəfli həyat yolu və elmi fəaliyyəti haqqında geniş məlumat verən Gəray Gəraybəyli qeyd edib ki, ölkəmizdə tibb elminin tədrisində akademik Böyükkişi Ağayevin xüsusi rolu və əməyi vardır. Respublikada cərrahi qastroenterologiya elmi məktəbinin yaradıcılarından olan alimin dəyərli tədqiqatları bu istiqamətdə fundamental araşdırmaların aparılması və onların müalicə işində tətbiqi üçün geniş imkanlar açmışdır. Alim eksperimental nəticələr əsasında təcrübi tövsiyələri və ixtiraları ilə tibb elminə təqdirəlayiq töhfələr vermişdir.

Sözünə davam edən rektor bildirib ki, Böyükkişi Ağayev 400-dən çox elmi işlərin, həmçinin üç cildlik "Cərrahi Əməliyyatlar Atlası"nın müəllifidir. Akademik B.Ağayev 1973-cü ildən son dövrə qədər Azərbaycan Tibb



Universitetinin II cərrahi xəstəliklər kafedrasına rəhbərlik edib. 1980-ci ildən Azərbaycan Elmlər Akademiyasının müxbir, 1989-cu ildən isə həqiqi üzvü seçilib. Gəray Gəraybəyli vurğulayıb ki, akademik Böyükkişi Ağayev Azərbaycanda tətbiq olunan bir çox yeniliklərin banisi, korifey alim kimi yaddaşlarda qalacaq.





Azərbaycan Respublikası Səhiyyə Nazirinin müavini Rəhim Əliyev bildirib ki, akademik Böyükkişi Ağayevin sadəcə adı elə liderliklə sinonimdir: "Əgər böyük bir insan həm də sadə insandırsa, o, əvvəlki böyüklüyündən də böyükdür. Böyükkişi Ağayev məhz belə bir insan kimi yaddaşlarımızda qalıb". Nazirlik rəsmisi qeyd edib ki, B.Ağayevin Azərbaycan tibb elminin inkişafına verdiyi töhfələrin çəkisi ölçüyə sığmaz.

Tədbirdə görkəmli alimin hamıya örnək olan həyat və fəaliyyətindən bəhs edən Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov qeyd edib ki, Böyükkişi Ağayev Azərbaycan tibb elminin, səhiyyə və təhsilini nəzəri və praktiki fəaliyyəti ilə daim zənginləşdirən, onların tətbiq sahələrini genişləndirməyə çalışan istedadlı alim, bacarıqlı səhiyyə təşkilatçısı idi. O, Böyükkişi Ağayevin ilk növbədə peşəkar bir cərrah kimi anılmasının vacib olduğunu bildirib: "Çünki o, tibb elmində öz dəsti-xətti, öz istiqaməti olan böyük bir alimdir. Biz onun haqqında həm də təhsil sahəsində yeniliklərin müəllifi olan bir insan kimi danışmalıyıq. B.Ağayev çoxşaxəli fəaliyyət göstərən alimlərimizdən olub və onun adının çəkildiyi hər bir sahədə yeniliklər baş verirdi".

Daha sonra akademik Fazil Qurbanov və AMEA-nın müxbir üzvü, professor Südeyif İmamverdiyev gözəl insan, görkəmli alim yubilyar haqqında öz xatirələrini bölüşüblər. Natiqlər akademik Böyükkişi Ağayevin zəngin elmi, pedaqoji fəaliyyətindən və yüksək mənəvi keyfiyyətindən söhbət açıblar.

Akademik Böyükkişi Ağayevin ömür yoluna həsr olunmuş filmin təqdimatından sonra konfrans işini plenar iclaslarla davam etdirib.

Qeyd edək ki, akademik Böyükkişi Ağa oğlu Ağayev 1928-ci ildə Sabirabad rayonunda dünyaya göz açıb. 1944-cü ildə Azərbaycan Tibb İnstitutunun müalicə fakultəsinə daxil olub. 1954-cü ildə müsabiqə yoluyla 2-ci Moskva Tibb İnstitutunun cərrahiyə üzrə klinik aspiranturasına qəbul olunub. 1957-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra Həştərxan Tibb İnstitutunun cərrahiyyə kafedrasında assistent vəzifəsinə təyin olunub. 1960-cı ildə Bakıya qayıtdıqdan sonra Azərbaycan Elmi-Tədqiqat Onkoloji İnstitutunda baş elmi işçi vəzifəsində çalışıb.

Böyükkişi Ağayev 400-dən artıq elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, üçcildlik "Cərrahi əməliyyatlar atlası"nın, dərslik, ixtiralar və səmərələşdirici təkliflərin müəllifidir. Ölkənin qastroenteroloq həkimlərinin bütöv bir nəsli Böyükkişi Ağayevin tədqiqatlarından bu gün mötəbər mənbə kimi istifadə etməkdədirlər. Alimin xarici dillərdə işıq üzü görən fundamental-nəzəri əhəmiyyətli əsərləri elmi ictimaiyyət arasında rəğbətlə qarşılanmışdır.

Böyükkişi Ağayevin rəhbərliyi ilə 9 tibb üzrə elmlər doktoru, 52 tibb üzrə fəlsəfə doktoru və çox sayda yüksəkixtisaslı cərrah qastroenteroloq hazırlanmışdır. Dünyanın bəzi tanınmış səhiyyə mərkəzlərində alimin yetirmələri hal-hazırda uğurla çalışmaqdadır. Böyükkişi Ağayev mötəbər beynəlxalq konfrans və simpoziumlardakı məzmunlu çıxışları, eləcə də məruzələri ilə Azərbaycanın müasir tibb elmini layiqincə təmsil etmişdir.

Böyükkişi Ağayevin ictimai fəaliyyəti də səmərəli olmuşdur. O, bir sıra beynəlxalq elmi cəmiyyətlərin üzvü və XII çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir.

Elmi və pedaqoji fəaliyyəti daim dövlətimiz tərəfindən yüksək qiymətləndirilən Böyükkişi Ağayev Azərbaycan tibb elminin inkişafındakı xidmətlərinə görə 1998-ci ildə "Şərəf" ordeni ilə təltif olunub. O, həmçinin akademik M.A.Qasımov adına mükafat, akademik M.A.Topçubaşov adına mükafata və Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalına layiq görülüb.

**M.ƏLƏKBƏRLİ**

# KURSANTLARIMIZ HƏRBİ AND İÇDİLƏR

**Sentyabrın 16-da Mərkəzi Hərbi Klinik Hospitalın həyətində Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinin I və V kurs kursantlarının andiçmə mərasimi oldu. Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov, toplantı rəisi, tibbi xidmət polkovnik-leytenantı Qabil Hüseynova andiçməyə başlamaq üçün əmr verdi.**



Ulu öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət Himni oxundu. Hərbi And kursantlar tərəfindən təntənəli şəkildə səsləndirildi. Kursantların andiçməsi başa çatdıqdan sonra Ç.Əlləzov onları bu əlamətdar gün münasibətlə təbrik etdi.

Hərbi təhsil idarəsinin rəis müavini, polkovnik Elnur Məmmədov da çıxış edərək kursantlara bu çətin və şərəfli peşədə uğurlar arzuladı.

Kursant Kərəm Məmmədov V kurs kursantları adından ilkin təlim toplanışı dövründə onlara qayğı ilə yanaşan Hərbi Tibb Fakültəsinin zabit, gizir və müəllim heyətinə öz minnətdarlığını bildirdi: "Mən əminəm ki, sizin bütün etimadlarınızı doğruldacaq, vətənimizə və millətimizə layiqli hərbi həkim olacağıq. Biz gənclər ulu öndərimiz Heydər Əliyevin varisləriyik. Ulu Öndərimizin təməlini qoyduğu hərbi tibb fakültəsi Ali Baş Komandan cənab İlham Əliyevin diqqəti nəticəsində fəaliyyət göstərir və savadlı hərbi həkim kadrları hazırlayır.

Biz də öz növbəmizdə Silahlı Qüvvələrin inkişafına öz töhfəmizi verməklə həkimlik borcumuzu yerinə yetirməyə və Vətənimizin müdafiəsində şərəflə durmağa söz veririk.

Artıq bu gündən etibarən hərbi tibb fakültəsi kursantı olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasına daxil olduq.

Bütün ruhumuzla, qəlbimizlə bu müqəddəs formaya, eləcə də Azərbaycan Ordusu sıralarına layiq olduğumuzu sübut edəcəyik".

Valideynlər adından çıxış edən İmanxan Şahbazov komandanlığa və şəxsi heyətə təşəkkürünü çatdıraraq bu gün sədaqət andı içən kursantların gələcəkdə Vətənimizə, dövlətimizə, xalqımıza və müstəqilliyimizə sadiq zabitlər kimi yetişəcəklərinə əminliyini bildirdi.

Sonda Ç.Əlləzov valideynlərlə söhbət apararaq, mövcud şəraitdə hərb sənətinin xüsusi önəm daşıdığını vurğuladı. Onların bu şərəfli yolu seçən övladlarına dövlət tərəfindən yaradılan şəraitdən ətraflı söhbət açdı.

Hərbi tibb fakültəsinin şəxsi heyətlə iş üzrə baş köməkçisi, mayor Aslan Bayramov peşəkar hərbi həkim kadrlarının hazırlanması istiqamətində fakültə rəhbərliyinin fəaliyyəti barədə təəssüratlarını bizimlə bölüşərək övladlarını hərbi sahəyə yönləndirən valideynlərə də bu əlamətdar gün münasibətilə gözaydınlığı verdi.

Xatırladaq ki, hərbi həkim hazırlığı və feldşer hazırlığı kurslarının kursantları tam tərkibdə Hərbi And içdikdən və iki il təhsillərini davam etdirdikdən sonra hərbi hissələrdə qulluq edəcəklər.

**A.KAMRANOĞLU**

**Görüşlərə tələbə həyatının sevincini yaşayan gənclərin valideynləri də qatılıblar.**

# Fakültə dekanlıqlarının nümayəndələri I kurs tələbələrilə görüşüblər




I müalicə-profilaktika fakültəsi

I müalicə-profilaktika fakültəsinin rəhbərliyi universitetə yeni qəbul olan tələbələrlə görüşüb.

Fakültə dekanı, dosent Qorxmaz Əhmədov tələbələri təbrik edərək, onlara universitet həyatında uğurlar diləyib. Bildirib ki, tibb təhsili ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Son illər tibb təhsili sahəsində gedən sürətli reformalara hamımız şahidik: "Həkim və pedaqoji kadrların hazırlanması, universitetimizin maddi-texniki bazasının inkişafı müvafiq dövlət strukturları tərəfindən hərtərəfli dəstəklənir.

Bu baxımdan, son illər ərzində ATU-nin 4 tədris klinikasının inşası və ən müasir avadanlıqlarla təchiz olunub istifadəyə verilməsi qürurverici haldır. Bu klinikalarda müalicə prosesi respublikamızın aparıcı mütəxəssisləri tərəfindən dünya standartlarına uyğun icra olunur".

Tələbələrə fakültənin elektron ünvanı, yerləşdiyi yer, dekanlığın şərtləri və s. məsələlər barədə məlumat verilib.

Sonra dekan müavini Mahir Quliyev tədrisə aid bəzi vacib metodoloji məqamları izah edib.




II müalicə-profilaktika fakültəsi

II müalicə-profilaktika fakültəsinin dekanlıq nümayəndələrinin də I kurs tələbələri ilə görüşü keçirilib.

Fakültənin dekan müavini, dosent Sevinc Məhərrəmova tələbə adını qazanan gənclərimizi təbrik edib, onların valideynlərinə gözaydınlığı verib.

I kurs tələbələrini universitetin daxili nizam-intizam qaydaları ilə tanış edən dekan müavini 60 kredit, ardıcıllıq tələb edən və etməyən fənlər, qiymətləndirmə, ödənişli imtahanlar və davamiyyət haqqında önəmli məqamları diqqətə çatdırıb.

Patoloji anatomiya kafedrasının dosenti Sərdar Əliyev də səmimi təbriklərini və ürək sözlərini tələbələrlə, onların valideynləri ilə bölüşüb.




İctimai səhiyyə fakültəsi

I kurs tələbələri ilə görüşlər çərçivəsində növbəti toplantı ictimai səhiyyə fakültəsində keçirilib.

Fakültənin dekanı, dosent Anar Ağayev tələbə adını qazanan gəncləri təbrik edərək onların bu uğurunu yüksək qiymətləndirib. Xatırladıb ki, 10 minlərlə gənc universitetə hazırlaşır, amma onların içərisindən ən yüksək bal toplayanlar öz istəklərinə qovuşurlar.

İctimai səhiyyə fakültəsinin tibbi profilaktika ixtisasının əsas mahiyyəti haqqında da ətraflı məlumat verən dekan bildirib ki, bu sahə ictimaiyyətin sağlamlığını qoruyan və yaxud ona təsir göstərən bir sahədir: "Yəni bir var ayrı-ayrı fərdlərin sağlamlığının qorunması, bir də var kütləvi sağlamlığın qorunması. Bu nöqteyi-nəzərdən tibbi profilaktika ixtisasına qəbul olunan tələbələrimiz əhali arasında xəstəliklərin yaranma səbəbləri və mexanizmlərini, yayılmasının qanunauyğunluqlarını öyrənirlər. Onlar epidemioloq, metodist, səhiyyə idarəçiləri və həkim-laborant olurlar. Əhalinin sağlamlığının pozulmasının qarşısını alan, elmi cəhətdən əsaslandırılmış profilaktik tədbirlər sistemini işləyib hazırlayırlar. Bununla da insanların sağlamlığının qorunmasını, əmək qabiliyyətinin, həyat keyfiyyətinin yüksəldilməsini təmin edirlər".

Bu fakültədə təhsil alan tələbələrin həm də ictimai fəallıqları ilə fərqləndiyini vurğulayan A.Ağayev Iı bəzən tələbələrdə və valideynlərdə narahatlıq yaradan məsələlərə də aydınlıq gətirib.




Stomatologiya fakültəsi

I kurs tələbələri ilə görüş stomatologiya fakültəsinin dekanlıq nümayəndələrinin iştirakı ilə də baş tutub.

Fakültənin dekanı, dosent Səid Əhmədov tələbələrə ATU-dakı tədris prosesi, imtahanlar, dərslərin aparılması, həmçinin nizam-intizam qaydaları haqqında geniş məlumat verib. Bu il stomatologiya fakültəsinə keçid ballarının çox yüksək olduğunu xatırladan dekan universitetdə təhsil almağın çətinliklərindən də danışıb. Qeyd edib ki, qəbul olunandan sonra bəzi tələbələrdə arxayınçılıq yaranmasının heç bir əsası yoxdur. Eyni zamanda fakültənin səmimi kollektivinə güvənməyi tövsiyə edərək, seçdikləri ixtisası dərindən mənimsəmək üçün ciddi çalışan tələbələrin tibbi təhsildə də uğur qazanacaqlarına əminliyini söyləyib.




Əczaçılıq fakültəsi

Əczaçılıq fakültəsinin dekanlıq nümayəndələri də I kurs tələbələri ilə görüşüb. Fakültənin dekanı, dosent Kamandar Yaqubov çıxış edərək, valideynləri və tələbələri təbrik edib: "Tələbə adını qazanmaq çox vacib hadisələrdən biridir. Hamınıza bu şərəfli peşədə uğurlar diləyirəm".

Dekan K.Yaqubov tələbələrə əczaçılıq fakültəsi barədə məlumat verərək bildirib ki, fakültə daxilində 7 kafedra fəaliyyət göstərir. Bunlar əczaçılıq texnologiyası və idarəçiliyi, farmakoqnoziya, farmakologiya, əczaçılıq kimyası, biofiziki və bioüzvi kimya, ümumi və toksikoloji kimya və ictimai fənlər kafedralarıdır: "Son illər ölkəmizdə ali təhsil sahəsində aparılan islahatlar əczaçılıq fakültəsinin fəaliyyətində də öz əksini tapıb. Bu islahatlarla əlaqədar fakültədə çoxpilləli təhsil sisteminə keçilib. 2004-cü ildən fakültədə təhsil müddəti 4 ilə endirilib, məzunlara bakalavr diplomu verilib. Hazırda fakültənin ən fəal məzunları əczacılıq texnologiyası, əczaçılıq kimyası, toksikoloji kimya və farmakoqnoziya ixtisasları üzrə magistraturada təhsillərini davam etdirirlər".

Qeyd edək ki, görüşlər zamanı tələbələri və valideynləri maraqlandıran suallar cavablandırılıb, tələbələrə təqdim olunan zərflərdə tələbə biletləri, müqavilələrin bir nüsxəsi, universitetin himni tələbələrin istifadəsi üçün qoyulub.

**Hazırladı: Arif MƏMMƏDLİ**
**Fotolar Cənnətalı Çingizindir**

# ATU-nun əməkdaşı antiyaş tibbinə aid konfransda iştirak edib

**Sentyabrın 3-də Bakıda "XXI əsrin antiyaş tibbi - qarşısının alınması və fərdiləşdirilməsi" mövzusuna həsr olunmuş konfrans keçirilib. Tədbirdə Azərbaycan Tibb Universitetinin "Tibbi biologiya və genetika" kafedrasının baş müəllimi Leyla Süleymanova da aktiv iştirak edib.**

**Konfransda Makrobiosis Antiyaş və Estetik Mərkəzin icraçı direktoru, tibb üzrə elmlər namizədi, əməkdar həkim Faizə Əliyeva giriş nitqi ilə çıxış edib.**



Rusiya Federasiyasının "Immunculus" Tibbi Tədqiqat Mərkəzinin elmi rəhbəri, tibb elmləri doktoru, professor Aleksandr Borisoviç Poletayev Immunculus texnologiyasının nəzəri əsasları barədə məlumat verib. Onun sözlərinə görə, immun sistemi tək virus və bakteriya ilə "döyüşçü" deyil, həmçinin orqanizmin müxtəlif funksiyalarının əsas tənzimləyicisidir. A.Poletayev tədqiqatların ELI- test immunoferment analizinin üsulları (ELISA-Enzyme-Linked Immuno Sorbent Assay) haqqında da məlumat verib.

Tanınmış italyalı alim, eksklüziv immunoloji sitotoksik testinin (ərzaq dözümsüzlüyü) müəllifi, Beynəlxalq Klinik Qidalanma Akademiyasının prezidenti Carmelo Rizzo müasir qidalanma mövzusu haqqında çıxış edib. Professor Rizzo ərzaq dözümsüzlüyünün sağlamlığa təsiri, həmçinin kompleks klinik halların təhlili haqqında geniş məruzə edib.

Rusiya Federasiyasının autistik spektrin pozğunluğunun müalicəsi və yeni diaqnostika metodlarının işlənib hazırlanması və tətbiqi istiqamətinin rəhbəri Alina Anatolyevna Poletayeva ASP-da (autistik spektrin pozğunluğu) əvvəllər bilinməyən patogenetik əlaqələrin aşkarlanması ilə əlaqədar olaraq yeni diaqnostik markerlərin axtarışı haqqında danışıb. O, sinir sisteminin və daxili orqanların antigenlərinə bir sıra autoantitellərin spektrini istifadə edərək, ASP olan uşaqlar üçün tərtib olunan diaqnostika alqoritmi, həmçinin korreksiya üçün ərzaqlara qarşı dözümsüzlük, mikroelementlərin tərkibi və bağırsaq mikrobiotasının diaqnostika üsulları haqqında geniş məruzə edib.

Konfransın sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# Əməkdaşımız İtaliyada beynəlxalq konfransda

**ATU-nun Bioloji Kimya kafedrasının əməkdaşı, kiçik elmi işçi Hafiz Osmanov bu il sentyabrın 5-dən 8-dək İtaliyanın paytaxtı Romada Sapienza və İtaliyanın Lesse şəhərində yerləşən Salento Universitetlərinin alimlərinin birgə təşkilatçılığı ilə keçirilən Beynəlxalq 15-ci Avrasiya Kimya Konfransında iştirak edib.**

Bundan əvvəl 2016-cı ilin dekabrında Pakistanın Karaçi Universitetində baş tutan 14-cü Beynəlxalq Avrasiya Kimya Konfransının fəal iştirakçılarından olan Hafiz Osmanov bu beynəlxalq tədbirdə 2 posterlə ("Azərbaycan florasından olan Cephalaria procera bitkisinin kimyəvi komponentlərinin tədqiqi"-əczaçılıq kimyası və qeyri-üzvi, toksikoloji kimya kafedrası əməkdaşları ilə birgə; "Revmatoid artritlə müşayiət olunan osteoparozlarda kalsium-fosfor mübadiləsinin əsas parametrlərinin və kalprotektinin səviyyəsi" – bioloji kimya kafedrası əməkdaşları) çıxış edib. Bu beynəlxalq elmi tədbirdə kimya elmi üzrə Nobel mükafatı laureatı (1987) fransalı professor Jean-Marie Lehn, Pakistan İslam Respublikası Beynəlxalq Kimya və Biologiya Elmləri Mərkəzinin rəhbəri, professor Muhammad İqbal Choudhary, İtaliyanın Genova şəhərində yerləşən İtaliya Texnologiyalar İnstitunun professoru Alberto Diaspro



başda olmaqla ABŞ, Avstriya, Almaniya, Əlcəzair, Belçika, Çin, Hindistan, Fransa, Filippin, İran, İraq, İtaliya, İsveç, İndoneziya, Liviya, Koreya, Yaponiya, Meksika, Rusiya, Rumınıya, Türkiyə, Yunanıstan, Pakistan, Şri-Lanka, Uruqvay kimi dövlətlərdən gəlmiş 150 nəfər 1 nobel məruzə, 2 plenar məruzə, 20 paralel simpozium, 76 prezentasiya və 38 poster məruzə ilə çıxış ediblər. Eyni zamanda konfransda müasir kimyanın aktual problemləri, digər biologiya və tibb elmləri ilə sıx əlaqələri, təhsildə və ümumi elmi inteqrasiyada rolu barədə müzakirələr də aparılıb.

Qeyd edək ki, konfransa Salento Universitetinin professoru, xanım Luçiana Dininin sədrlik edib. Səs çoxluğu ilə novbəti Beynəlxalq 16-cı Avrasiya Kimya Konfransının 2020-ci ildə Şri-Lankada keçirilməsi qərara alınıb.

# İsrailli mütəxəssis Tədris Stomatoloji Klinikada məruzə ilə çıxış edib

**Sentyabrın 14-də Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin təşkilatçılığı ilə ATU-nun Tədris Stomatoloji Klinikasında həkim və universitetin rezidentləri üçün kurs keçirilib.**



Kurs Cəmiyyətin sədri, professor Çingiz Rəhimov tərəfindən açıq elan edilib. Ç.Rəhimov rəhbərlik etdiyi Cəmiyyətin 2010-cu ilin sentyabrından fəaliyyət göstərdiyini və Cəmiyyətin əsas hədəf və prisipləri barədə kurs iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, əsas hədəfimiz əhaliyə əlçatan və keyfiyyətli xidmət göstərmək məqsədilə ağız və üz-çənə cərrahiyyəsi ixtisasına dair bilik və təcrübəni yerli və xarici həmkarlarla bölüşmək, beynəlxalq əməkdaşlıq qurmaq, bu sahədə gələcək nəsli ruhlandırmaq və mütəxəssislərimizi yeni nailiyyətlərə təşviq etməkdir. Dünyanın aparıcı şirkət və təşkilatları ilə işbirliyi qurmaq, yeni texnologiyaların ölkəmizə gətirilməsi niyyətində olduqlarını deyən Ç.Rəhimov, məruzəçinin İsraildə fəaliyyət göstərən "Paltov" şirkətinin Tədqiqat Mərkəzinin rəhbəri, professor Andy Boiangiu olduğunu qeyd edib. O, A.Boiangiunun implantologiya və sümük artırılması sahəsində tanınmış mütəxəssis olduğunu və bir sıra dövlətlərdə onun təcrübəsindən istifadə edildiyini bildirib. İsrailli mütəxəssisin öz təcrübəsini Azərbaycana da gətirdiyini və kursda iştirak edənlərin onun söyləyəcəyi mühazirələrdən və təcrübələrdən kifayət qədər yararlanacağını bildirib.



A.Boiangiunun "Minimal invaziya ilə sinus lift əməliyyatı" və "Yeni üsulla sinus lift əməliyyatın təcrübəsi" mövzularında söylədiyi məruzələr, ayrı-ayrı pasiyentlər üzərində apardığı təcrübələr iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Kurs geniş diskussiya şəraitində öz işini başa çatdırıb.

# Çətin hamiləlik uğurla başa çatdırılıb

**Azərbaycan Tibb Universitetində çətin hamiləlik uğurla başa çatdırılıb. On illik evlilik həyatı boyu 12 dəfə hamiləliyi yarıda kəsilmiş 30 yaşlı qadın ATU-nun Tədris Cərrahiyyə Klinikasının həkimləri sayəsində ilk dəfə analıq sevincini yaşayıb.**



Bu barədə məlumat verən klinikanın I mamalıq-ginekologiya kafedrasının dosenti, tibb elmləri namizədi Natəvan Axundovanın sözlərinə görə, xəstə ilk hamiləliyini 16-cı, qalan hamiləliklərini isə 7-8-ci həftələrə qədər davam etdirə bilib. Qadının sonrakı bütün hamiləliklərində döl inkişafdan qalıb. Xəstəyə 2013-cü ildə İranda ikibuynuzlu uşaqlığın rekonstruktiv əməliyyatı olunmasına baxmayaraq, cərrahi müdaxilədən sonra da iki döl inkişafdan qalıb. Tələf olan embrionların yalnız birinin kariotip müayinəsi aparılıb və kariotipin 46XX olması müəyyən olunub. Həkim xəstənin bundan əvvəl Moskvada da müayinə olunduğunu bildirib.

N.Axundovanın dediyinə görə, Tibb Universitetinin həkimlərinin köməyi ilə hamilə qaldıqdan sonra qadına nəzarət gücləndirilib, hamiləlik aşağı molekul çəkili heparinin yüksək profilaktik dozası ilə aparılıb. Hamiləlik zamanı düşük, vaxtından qabaq doğuş, hamiləlik hipertenziyası, dölyanı mayenin vaxtından əvvəl axması, simptomsuz bakteriuriya kimi bir sıra təhlükələrin qarşısı vaxtında alınıb, hamilə daha ciddi nəzarət üçün hospitalizasiya olunub. Onun müalicəsi stasionar şəraitində davam etdirilib: "Hamiləliyin 29-cu həftəsindən hospitalizasiya olunan qadın hamiləliyi 34 həftəsinə qədər çatdıra bilib. Dölün doppler müayinəsindəki dəyişikliklərə və bətndaxili inkişaf ləngiməsinə görə döl kesar kəsiyi əməliyyatı ilə xaric olunub".

Yeni doğulan körpənin çəkisi 2000 qram, boyu 45 sm-dir. Ana və uşaq kafi vəziyyətdə evə yazılıblar.

**ATU-nun mətbuat xidməti**

# ATU - da fizioterapiya günü qeyd olunub

**8 sentyabr - Dünya Fizioterapiya Günüdür. Fizioterapiya – təbii və fiziki amillərin müalicə xüsusiyyətlərini araşdıran və onların müalicə-profilaktik məqsədi ilə tətbiqi üsullarını hazırlayan tibbi bölmədir. Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında bu günə aid xüsusi tədbir keçirilib.**

ATU-nun Tədris Cərrahiyyə Klinikasının Fizioterapiya və bərpa şöbəsi tərəfindən təşkil olunan toplantıda qeyd olunub ki, fizioterapiya bir çox xəstəliklərin profilaktikasında çox gözəl vasitədir. Bu metoddan daha çox oynaq, dayaq-hərəkət sistemi xəstəliklərində, həmçinin, bir çox xəstəliklərin bərpa periodunda istifadə olunur.

Tədris Cərrahiyyə Klinikasının Fizioterapiya və Bərpa şöbəsinin müdiri Nurlana Əliyeva bildirib ki, fizioterapiya fiziki üsullarla müalicə deməkdir. Bu zaman fiziki üsullar qismində günəş şüasının spektri, elektrik dalğaları, maqnit dalğaları və ultrasəs dalğalarından istifadə etməklə müalicə nəzərdə tutulur.

Fizioterapiya 2 əsas bölməyə - elektroterapiya və reabilitasiya hissələrinə ayrılır. Elektroterapiya tibbi avadanlıqlarla müalicə üsuludur. Reabilitasiya isə itirilmiş funksiyaların bərpası və təkrar sosial həyata qaytarılması deməkdir. Bu müalicə vasitələri şüalar və insan orqanizminə təbii faktorların süni yollarla tətbiq edilməsindən asılıdır.

## ATU-nun Tədris Cərrahiyyə Klinikasında son müalicə metodları tətbiq olunur



Tədbirdə qeyd olunub ki, son zamanlar zərbə-dalğa terapiyası müalicə üsuluna çox üstünlük verilir. Elə ATU Tədris Cərrahiyyə Klinikasının Fizioterapiya və bərpa şöbəsində də bir çox xəstəliklərin müalicəsi zamanı zərbə-dalğa terapiyasından istifadə edilir. Bu zaman müalicə çox aşağı tezlikli səs dalğaları (akustik dalğalar) yaradan xüsusi cihaz vasitəsilə aparılır. Bu akustik dalğalar toxumalara yayılaraq sümüyə qədər hərəkət edir. Elə prosedur zamanı yaxşılaşma müşahidə olunur. Pasiyentdə kəskin və xroniki ağrılar, yerli iltihab və şiş azalır, əhvalı yaxşılaşır. Həmçinin, cihazın təmas nahiyəsində qan axını artır.

Lakin zərbə-dalğa terapiyasından hər xəstənin müalicəsində istifadə oluna bilməz. Bu metod yalnız daban mahmızı və ya pəncə fassiti, epikondilit, osteoxondroz, osteoartroz, çiyin-kürək periartropatiyası, koksiqodiniya, əzələ-tonik sindrom, sınıqların gec bitişməsi və yastıayaqlılıq zamanı tətbiq oluna bilər.

Qeyd edək ki, hazırda ATU-nun Tədris Cərrahiyyə Klinikasının Fizioterapiya və bərpa şöbəsi son model tibbi avadanlıqla təchiz olunub. Şöbədə müasir müalicə üsullarından istifadə olunur. Pasyent xəstəliyin kəskin dövründən sonra mütləq bərpa və reabelitasiya periodunu keçməlidir. Bu, aparılmış maliceni möhkəmləndirmək üçün vacib şərtdir. Belə xəstələr ATU-nun Tədris Cərrahiyyə Klinikasında yüksək səviyyəli tibbi xidmət almaqla yanaşı, həm müalicə alacaq, həm də artıq xərclərdən qurtulmuş olacaqlar.

Bütün dünyada Fizioterapiya Gününün qeyd olunması insanlara bir daha bu müalicə metodlarını xatırladır və xəstəliklə bağlı zəruri bilgiləri hər kəsə çatdırmaqla maarifləndirir.

# İsmayıl Molla oğlu Nağıyev

**Uzun illər Ailə təbabəti kafedrasında dosent vəzifəsində işləmiş İsmayıl Molla oğlu Nağıyev dünyasını dəyişmişdir.**



İsmayıl Molla oğlu Nağıyev 1930-cu ildə Ağstafa rayonunun Sadıxlı kəndində anadan olmuşdur. 1948-ci ildə orta məktəbi əla qiymətlərlə bitirərək, 1949-cu ildə Azərbaycan Tibb İnstitutuna (indiki ATU) daxil olmuş, 1954-cü ildə isə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin ildən etibarən Azərbaycan SSR Mərkəzi Komitəsinin göstərişi ilə Qazaxıstan Respublikasına həkim vəzifəsində işləməyə göndərilmişdir. 1954-cü ildən 1950-ci ilə kimi baş həkim vəzifəsində çalışmış, fəxri fərmanlar və medalla təltif olunmuşdur. Sonra isə Azərbaycana qayıtmış və İctimai Təminat Nazirliyində həkim-ekspert vəzifəsində xidmət göstərmişdir. 1963-cü ildə ATU-nun infeksion xəstəliklər kafedrasının aspiranturasına daxil olmuş, namizədlik elmi dərəcəsini aldıqdan sonra dosent vəzifəsində çalışmışdır.

İsmayıl Nağıyev 25 ildən artıq "Sanitar aviasiya" vasitəsi ilə rayonlara gedərək ağır xəstələrə tibbi yardım göstərmiş və yerlərdəki həkimlərə məsləhət vermişdir. Respublikada baş vermiş vəba və qarın yatalağı epidemiyasının ləğvində fəal iştirak etmişdir. 1990-cı ildən ATU-nun ailə təbabəti kafedrasında dosent vəzifəsində çalışmışdır.

O, bir çox metodik göstəriş, 2 monoqrafiya, 60 elmi məqalənin müəllifidir. Akademik Lütfi-Zadə adına Akademiyanın və Dövlət İmtahan Komissiyasının üzvü olmuşdur.

İşlədiyi müddətdə özünü intizamlı və işgüzar əməkdaş kimi göstərmiş, qayğıkeş müəllim, fədakar ata, sevimli baba ömrü yaşamış İsmayıl müəllim doğmalarının, tələbə və həmkarlarının qəlbində əbədi yaşayacaqdır.

***Allah rəhmət eləsin, qəbri nurla dolsun!!***

*Ailə təababəti kafedrasının əməkdaşları*

# Yeni tədris ilindən bir sıra yeniliklərin tətbiqinə başlanılacaq

**Sentyabrın 17-də İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında 2018-2019-cu tədris ilinin payız semestrində kollektiv qarşısında duran vəzifələrlə bağlı tədbir keçirilib. Tədbiri kafedranın müdiri, professor Rafiq Çobanov açaraq yeni tədris ilinin başlanması münasibəti ilə kollektivi təbrik edib. O, yeni tədris ilində bir sıra yeniliklərin olacağını, tələbələrə bir sıra yeni ixtisasların, o cümlədən səhiyyə meneceri ixtisasının öyrədiləcəyini qeyd edərək, sözü tədris işləri üzrə kafedra müdirinin köməkçisi, t.ü.f.d., baş müəllim Kamran Babayevə verib.**



K.Babayev çıxışında yeni dərs ilində müəyyən dəyişikliklərin nəzərdə tutulduğunu qeyd edib. Rəhbərliyin göstərişi ilə bu ildən etibarən kurasiyanın ləğv olunduğunu və praktik məşğələ sisteminə keçildiyini bildirib.

K.Babayev dərs yükünə, tələbələrin dərsə davamiyyətinə, fərdi iş planının və elektron jurnalların hazırlanması məsələsinə də toxunub: "Bu ildən etibarən mühazirənin davamiyyəti ayrıca hesablanacaq, yeni mühazirədən dərs buraxma 40% olduqda tələbə imtahana buraxılmayacaq. İlk həftədən tələbələrə bu barədə məlumat verilməlidir.

Hesab edirəm ki, rəhbərliyin bu addımı təqdirəlayiqdir, çünki yuxarı kurslar çox vaxt mühazirələrdə iştirak etmirdilər və davamiyyət balı ümumilikdə 25%-lə hesablanırdı. İndi tələbə başa düşəcək ki, praktikadan olan müvəffəqiyyət göstəricisi yuxarı olsa belə, mühazirədən davamiyyəti 40%-i keçdisə, imtahana buraxılmayacaq". K.Babayev imtahanlarla bağlı dəyişikliklərdə yeni sistemin və Elektron Universitetin yaradılması məsələsindən də söhbət açıb və bu sistemin hələ ki, I kurslara şamil olunacağını qeyd edib.

Kafedranın dosenti Anar Ağayev də öz çıxışında universitetdə aparılan islahatları və edilmiş yeniliklər təqdir edib. Kafedranın əməkdaşlarına bəzi tövsiyələrini veribdir.

**Qabil ABDULLAYEV**

# 8 sentyabr Dünya İlk Tibbi Yardım Günüdür

**2000-ci ildən etibarən hər il sentyabr ayının ikinci şənbəsi Dünya İlk Tibbi Yardım Günü (World First Aid Day) kimi qeyd olunur. Həmin tarix Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Hərəkatına üzv ölkələrinin təşəbbüsü ilə təsis edilib. Günün əsas məqsədi bədbəxt hadisələr zamanı insanların həyatını xilas etmək üçün həkimə qədər mülki şəxslərin necə yardım göstərməsini öyrətməkdir.**



AZƏRTAC xəbər verir ki, ilkin tibbi yardımın məqsədi zərərçəkənin həyatını xilas etməklə yanaşı, sadə tibbi tədbirlər görməklə onun ağrılarını azaltmaq və mümkün ağırlaşmalar barədə xəbərdarlıq etməkdir. Əlbəttə ki, bu sahədə tibb işçiləri yardım göstərirlər, lakin polis əməkdaşları və xilasedicilər də onlara kömək etməlidirlər.

Həyat göstərir ki, təcili tibbi yardıma əksər hallarda qəflətən ehtiyac yaranır. Bəzən vaxt qıtlığı səbəbindən bu yardımın tibbi təhsili olmayanlar tərəfindən yerinə yetirilməsi lazım gəlir. Ona görə də vaxtın hər anının dəyərli olduğu məqamlarda tez və qətiyyətli hərəkət etmək lazımdır.

Dünya Səhiyyə Təşkilatının hesablamalarına əsasən, hər il dünyada baş verən yol qəzaları, yanıqlar, hündürlükdən düşmələr, boğulma kimi hadisələrin 10 faizi ölüm, 15 faizi isə əlilliklə nəticələnir. Həmin hadisələr zamanı dünyasını dəyişənlərin əksəriyyətini 15-45 yaş arasında olanlar təşkil edir.

Dünyada ilkin tibbi yardım xidməti hələ XIX əsrin sonlarında yaranıb. Azərbaycanda isə bu xidmətin əsası 1922-ci ildə qoyulub.

Ölkəmizin dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə təcili tibbi yardım xidmətinin inkişafına böyük diqqət göstərilməyə başlanılıb. Xüsusilə də son illər təcili tibbi yardım avtomobilləri parkı yenilənir, müasir tibbi avadanlıqlarla təchiz edilmiş nəqliyyat vasitələri əhaliyə xidmət üçün növbəyə buraxılır. Eyni zamanda, dərman təchizatı da ildən-ilə yaxşılaşdırılır, çeşid genişləndirilir, tibbi heyət müasir uniforma ilə təchiz edilir, həkim və orta tibb işçilərinin peşəkarlığı daha da artırılır.

Təcili yardım xidməti həmişə hadisə yerinə vaxtında yetişə bilmir. Ona görə də xilasedicilər gələnə qədər zərərçəkənə ilkin tibbi yardım göstərilməsi həlledici rol oynaya bilər. Onu da başa düşmək lazımdır ki, heç kəs bədbəxt hadisədən sığortalanmayıb və hər birimiz zərərçəkən yerində ola bilərik.

**ATU-nun mətbuat xidməti**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri:**

- Xarici dillər kafedrası
- İctimai fənlər kafedrası
- Anesteziologiya və reanimatologiya kafedrası
- Azərbaycan dili kafedrası
- Terapevtik və pediatrik propedevtika kafedrası

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08, 597-41-69, 597-43-23.**

## Allah rəhmət eləsin!

İnsan anatomiyası və farmakologiya kafedralarının əməkdaşları, "Təbib" qəzetinin kollektivi insan anatomiyası kafedrasının professoru Mübariz Allahverdiyevə qardaşı

**Zahid Allahverdiyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ortopedik stomatologiya kafedrasının əməkdaşları kafedranın assistenti Rauf Şahmuradova atası

**Rəfail Şahmuradovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məhkəmə təbabəti kafedrasının əməkdaşları kafedranın dosenti Aidə Xanməmmədovaya qardaşı

**Mənsur Xanməmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məhkəmə təbabəti kafedrasının əməkdaşları kafedranın dosenti Ülfət Mikayılova bacısı

**Mahirə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məhkəmə təbabəti kafedrasının əməkdaşları kafedranın assistenti Əliş Mevliyevə atası

**Balaca Mevliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II uşaq xəstəlikləri kafedrasının, Tədris Terapevtik Klinikanın uşaq kardio-revmatologiya və pulmonologiya-allerqologiya, endokrinologiya şöbəsinin əməkdaşları iş yoldaşları Nailə Fərəməzovaya atası

**İsrafil Mövsümovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əsaslı kitabxananın və "Təbib" qəzetinin kollektivi Əsaslı kitabxananın əməkdaşı Əsgər Əsgərova qardaşı

**Hamlet müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Elçin Hüseynova atası

**Məmməd Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in əməkdaşları Biokimya şöbəsinin müdiri, dosent Sevda Quliyevaya anası

**Cəmilə xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

ETM-in əməkdaşları, iş yoldaşları Zeynəb Vəliyevaya bacısı oğlu

**Elşən Əliyevin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın assistenti Nina Həsənovaya həyat yoldaşı

**Rafiq Həsənovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Yüksək bal toplayan abituriyentlər ATU-nu seçdilər



## Selcan CAHANGİROVA

Selcan Tərlan qızı Cahangirova 23 yanvar 2001-ci ildə Bakı şəhərində anadan olub. 2007-ci ildə Nizami rayonu 129 saylı məktəbin I sinfinə gedib. IX sinifdən etibarən Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyində təhsilini davam etdirib və 2018-ci ildə qızıl medalla məzun olub. Respublika Fənn Olimpiadalarında iştirak edib. Biologiya fənni üzrə 2017-ci ildə qızıl medal və 2018-ci ildə gümüş medal qazanıb.

Bu il 692 bal toplayaraq Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olub.

Həkim olmaq Selcanın uşaqlıq arzusu olub. Məqsədinə çatdığı üçün hər zaman onu dəstəkləyən, üzərində əməyi olan ailəsinə və müəllimlərinə dərin təşəkkürünü bildirir.

## Fuad HƏSƏNLİ



20 dekabr 2001-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 2007-ci ildə Bakı şəhər 204 saylı tam orta məktəbin I sinfinə gedib. Fuad aşağı siniflərdə əla qiymətlərlə oxumaqla yanaşı, xüsusi istedadı ilə də seçilib. Müxtəlif məktəbdaxili tədbirlərdə, bilik yarışlarında fəal iştirak edib. 2016-cı ildə IX-XI sinif şagirdləri arasında keçirilən "Sabahın alimləri" Respublika Fənn müsabiqəsində "Biologiya" nominasiyası üzrə layihə təqdim etdiyinə görə sertifikatla təltif olunub. Elə həmin il Azərbaycan dili və Ədəbiyyat fənni üzrə Respublika Fənn Olimpiadasının yarımfinal turunda iştirak edib.

Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə təşkil olunmuş "Ölkəmizi tanıyaq" layihəsinin iştirakçısı olub.

2017- ci ildə IX-XI sinif şagirdləri arasında keçirilən "Sabahın alimləri" Respublika Fənn müsabiqəsində "Tibb və sağlamlıq" nominasiyası üzrə layihə ilə çıxış edərək Respublika üzrə III yerə layiq görülüb və diploma təltif olunub.

2017-2018-ci tədris ilində "Gənc kimyaçılar" müsabiqəsində Xətai rayonu üzrə I yerə layıq görülüb. Bu il keçirilən Kimya fənni üzrə Respublika Fənn Olimpiadasının final mərhələsinin qalibi olub.

Həkim olmaq istəyi onda daha çox dəqiq elmlərə olan marağının əsasında yaranıb və öz təşəbbüsü ilə IV qrupa hazırlaşıb.

2018-ci ildə məktəbi qızıl medal və qızılı attestatla bitirib.

DİM-in keçirdiyi 3-cü sınaq imtahanında maksimum nəticə əldə edərək 700 bal toplayıb.

2018-ci ilin yaz qəbul imtahanında IV qrup üzrə 690 bal toplayaraq ATU-nun müalicə işi fakültəsinə qəbul olunub.

Ailə üzvləri 4 nəfərdən ibarətdir. Fuad ailənin ilk övladıdır. Fuadın fikrincə, zəhmətsiz uğur yoxdur. O bildirir ki, universitetə daxil olmağın sevinci və qüruru bütün əziyyətləri unutdurur. Gələcəkdə arzusu dünya səviyyəli, tanınmış cərrah olmaqdır.



## Rahib İSMAYILOV

Rahib İsmayılov 29 iyul 2000-ci ildə Bərdə rayonunun 32-lər kəndində anadan olub. 2006-cı ildə Xanqaraqoyunlu kənd tam orta məktəbin I sinfinə gedib və 2017-ci ildə XI sinfi fərqlənmə attestatı ilə bitirib. 2016-2017-ci ildə qəbul imtahanında 615 bal toplayıb və istədiyi nəticəni əldə etmədiyi üçün biliyini yenidən sınamaq qərarına gəlib və nəticədən razı qalıb. Belə ki, 2017-2018-ci ildə 687 bal toplayaraq ATU-nun müalicə işi fakültəsinə qəbul olub.

Rahib bildirir ki, bu uğuru güclü iradəsi, əzmkarlıgı və ailəsinin və müəllimlərinin köməyi ilə qazanıb.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin IV kurs, $10^{b}$ qrup tələbəsi Abbasov Ehtibar Həsən oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, $842^{c}$ qrup tələbəsi Əlişova Nərmin Polad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $72^{b}$ qrup tələbəsi Allahverdiyev Taleh Söhrab oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $317^{i-3}$ qrup tələbəsi Rsetem Mustafa Kadhim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $317^{a-29}$ qrup tələbəsi Məmmədli Natiq Oqtay oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{a-4}$ qrup tələbəsi Barış Diyar Yüzgeçin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{a-4}$ qrup tələbəsi Həsənli Aytac Sabir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{a-6}$ qrup tələbəsi Məmmədzadə Fidan Elbrus qızının adına verilmiş tələbə bileti və şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $35^{a}$ qrup tələbəsi Quliyeva Cəvahir Şahin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $717^{a-8}$ qrup tələbəsi Mohammed Nasrollahi Saidllo Abbas oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və mühasibat fakültəsinin II kurs, 426-cı qrup tələbəsi Allahverdiyeva Səlbi Vidadi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{r-4}$ qrup tələbəsi Zeynallı Fidan Qəşəm qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $717^{i-5}$ qrup tələbəsi Hayder Rauf Mohammed Al Gailanin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $361^{a}$ qrup tələbəsi Məmmədova Sevda Adil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800